

## Monqış Kenin Lopsan

*Tuva*

### Tuva planeti

*Günəş sisteminin kiçik planetlərindən birinin adı Tuvadır*

Dədəmin danışdığı nağıllar sizi qorusun,
Ulduzlu, pərili nağıllar sonda səni, məni göy üzünə uçuracaq.
Qurbüstünün* hüzuruna. Bir möcüzə baş verəcək həmin anda
Dünyaya yaxın bütün insanlar əfv buyuracaq.

Bu uzaqdakı nağıllar boşuna ola bilməz. Yox!
Narın qanadları var uşaqların: daha güclü, daha məğrur.
Fırtınalar qopanda əllərimin içinə qonub,
Dimdiklərini israrla ovuclarıma vurur.

Uçuram kosmik fəzada, davam edir gün orda,
Onlar ölkəmə və kainata görə narahat.
Biz onlara nağıllardan çıxan bir uşaq verdik,
İllər əvvəl transda beləcə başladı həyat.

Yüksək təpələr də uca zirvələr olmasa əriyib gedər,
düzənliklərdə toz qalxar dağdakı qarların yerinə.
Canlıdır planet başdan ayağa kimi,
Kiçik, gözəçarpmayan həyat işləməkdə dərinə.

Orda böyük oxlar ətrafında fırlanır mifoloji dramlar,
Mənim Tuvam dayanıb Yuputerdə zirvədə.
Bir nağıla dönmüşəm oğullarımın yaddaşında,
Mənəm nağıllarda yaşayıb qocalan dədə.

**Qurbüstü - Göylərin baş kralı.*

### Göylərdən gələn

Mən - güclü bir şaman xəstəliyi qazandım.
Mən taclandırıldım digər insanların kədəri azalsın deyə.
qırmanc dəydi kürəyimə işıltısı kəskin bıçaq,
Yaramaz ruhlu şeytanlar ruhumdan uzaq qalsın deyə!

Bir xidmətçiyəm, sahibimdir göy üzü,
Dəniz qızları mənim düşüncələrimdəki naxışları görür.
Damarımdan axan qan mənim Yerdəki vəzifəm,
Yaradan ona edilən alqışları görür.

Müalicəvi otlar yığdım səhər-axşam dağlardan,
Bir az bizdən uzaqda acı ölümün gəldi səsi.
Bir maral gördüm buynuzları və ayaqları əyri,
Gördüklərimi deməyə də çatmırdı heç nəfəsim.

Əsas dərd pis ruhlardır. Xəstəliyi yaradan pis ruhlar,
Onları xəstənin ruhundan çıxarmalıyıq.
Qu tüklü yataqlarından götürüb onları,
Ən uzaq dənizlərə aparmalıyıq!

*Hazırladı:* **Oktay HACIMUSALI**